**Səbinə Əmiraslan qızı Tahirova [14]**

# İNGİLİS DİLİNİN RABİTƏLİ NİTQİNDƏ İSTİFADƏ OLUNAN İNTONASİYA MODELLƏRİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

İntonasiya cümlənin quruluşundan, danışanın nitqinə münasibətindən, cümlə qurulma məqsədindən və s. asılı olaraq dəyişilir. Danışan situasiyadan, qurduğu cümlənin xarakterindən asılı olaraq öz nitqinin tempini, surətini, intensivliyini öz məqsədinə muvafiq sürətdə tənzimləyir ki, bu tənzimləmə intonasiyanı yaradır.

Danışığın başlanğıcı,gücü,sürəti və istiqaməti onun cümlə vurğusunda,melodiyasında və tempində baş verir.Səslənən hər bir nitq parçası prosodik ünsürlərsiz mövcud ola bilməz.İngilisfonetisləri.o cümlədən R.Kinqdona,O` Konnor,A.Arnold və başqaları belə bir fikir irəli sürürlər ki ,xarici dillərin tələffüz xüsusiyyətlərini öyrənərkən seqment (səslər) vahidlərə nisbətən,supraseqment(prosodik) vahidlərə, xüsusilə cümlə vurğusu və melodiyaya daha çox fikir vermək lazımdır.Beləki,xarici dili öyrənənin nitqi cümlə vurğusu və melodiya baxımından nə qədər düzgün formalaşmış olarsa,həmin nitq səslərə nisbətdə asan başa düşülür və nitqin məzmunu yaxşı qavranılır(1, s.7).

İntonasiya ünsiyyət zamanı nitqin ahəngi, cümlə vurğusu, nitqin tempi və tembri kimi bir sıra hadisələrin cəmindən təşkil olunmuş kompleks məfhumdur (1, s.120).

Bir qrup dilçi alimlər intonasiya prosesinin sözlərdəki səsin dəyişməsi olaraq təyin edirlər. Bu dilçilərə görə, intonasiyanın əsas məqsədi intonasiya elementlərini və onların nitqdəki funksiyalarını tədqiq etməkdir. İntonasiyanı bu nöqteyi-nəzərdən tədqiq edən alimlərin təqdim etdiyi hipotez “kontur” nəzəriyyəsi adlanır. Melodik qrup kontur nəzəriyyəsinin əhəmiyyətinin araşdırılmasında əsas element hesab olunur. Melodik qrup bir neçə komponentdən ibarətdir:

Nüvə, yəni kök melodiyası – cümlənin ən güclü, ən əsas vurğulu hissəsi. Məsələn, But he is not really <u>interested</u> in it.

Taktardı melodiya – melodik qrupun ən sonunda nüvədən sonar gələn vurğusuz heca. Məsələn, But he is not really interested in <u>it</u>.

Şkala –əsas vurğulu hecadan əvvəlki bütün vurğulu və vurğusuz hecalar. Məsələn,<u>Buthe</u> is not really interested in it.

Takt (head) – ilk vurğulu hecada səs melodiyasının dəyişməsi. Məsələn, But he is not <u>really</u> interested in it.

Takt önü (pre-head) – birinci vurğusuz, eləcə də zəif vurğulu hecalarda səs melodiyasının dəyişməsi. Məsələn,<u>But</u> he is not really interested in it (2, s.98).

Yuxarıda göstərilən elementlər, həmçinin, intonasıyanın komponentlərinə daxildir. Melodik elementlərin hər biri müstəqil, sərbəst element kimi təyin edilərək müvafiq quruluş və vəzifəyə sahibdir. İntonasiya ilə əlaqədar təklif edilən növbəti hipotezqrammatik nəzəriyyədir. Qrammatik nəzəriyyəyə görə, qrammatik elementlərdən biri hesab edilən cümlə intonasiya sisteminin özəyidir, əsasıdır. İntonasiya elementlərinin əmələ gəlməsində və ifadə edilməsində qrammatik kateqoriyalar iştirak edir. Bu nəzəriyyədə göstərilir ki, intonasiya ilə qrammatik elementlərinbir-biri ilə birbaşa münasibətləri yoxdur, lakin intonasiya məfhumu özü qrammatik müqayisə mənasını verir. Burada intonasiya, sadəcə olaraq qrammatik elementlərin ifadə edilməsi üçün bir vasitə rolunu oynayır. Bu nəzəriyyədə tonallıq, toniklik və ton olmaqla üç melodik element qeyd olunur. Bu 3 vahidin hər biri qrammatik sistemdə müəyyən tərəfləri ifadə edir. “Tonality” dedikdə tonal qrupların sərhədini ifadə edən vahid nəzərdə tutulur, başqa sözlə desək, nitq hissəsinin sintaqmlara bölünməsi nəzərdə tutulur. Bu nəzəriyyəyə görə nitq hissəsinin sintaqmatik üzvlənməsi həm neytral, həmçinin də nişanlamış ola bilər.

Məsələn, I ˊdon’t ˎknow | why they ˊleft without ˊsaying ˎgoodbye.

ˊWhen I ˊpassed my ˊlast ˏexam | I was ˊvery ˋhappy.

ˊIf you, see him, | ˊgive my ˋmessage.

He ‘joined the ˏarmy | and ˊspent all his ˊtime in ˋAldershot.

O halda nişanlanmış melodik qrup hesab edilə bilər ki, tonal qrupun səddi cümlənin səddinə uyğun olsun. İki tip nişanlanmış melodiyalılıq fərqləndirilir:

*1)* İki cümlə bir melodik qrup altında birləşdikdə.Məsələn, I’ll ˎcall | if you ˎwant.

2) Bir cümlə birdən artıqmelodik qrupla ifadə edildikdə.Məsələn,She ˊcame ˏhome | ˊvery ˎearly.

Neytral melodiyalılıq qrammatik nəzəriyyədə belə izah edilir: “I don’t know | they left without saying goodbye” nitq parçasında terminal melodiya cümlənin axırıncı mənalı sözündə icra olunur, bu zaman, nitq parçasının məna mərkəzi neytral hesab olunur. Nüvə, meyl istiqamətinin xeyli dərəcədə dəyişdiyini göstərən bir intonasiya formasında olan axırıncı güclü vurğulu hecadır. Nüvə melodiyası intonasiya məfhumunun ən mühüm hissəsini təşkil edir və onsuz intonasiya mövcud ola bilməz. Bir sözdən ibarət olan intonasiya vahidində o tək heca həm onun nüvəsidir. Bu zaman nüvədən əvvəl və ya sonra vurğulu hecalar ola bilər. Məsələn, 'Really? / 'Where? / ˋCertainly!

Nüvənin melodiyası intonasiya vahidinin digər hissəsini də müəyyən edir.Belə ki, enən tondan sonra intonasiya modelinin digər hissəsi də aşağıya doğru gedir. Yüksələn tondan sonra digər hissələri də yuxarı istiqamətdə hərəkət edir.

Nüvədənəvvəl gələn hissədəki dəyişikliklər danışanların münasibətini və tələffüz üslublarını təzahür etdirsə də, danışığın qrammatik mənasına təsir etmir.

[14] **ADU. tahirovasabina98@gmail.com**

İntonasiya nümunəsinin hissələrinin hamısı fərqli üsullarla bir araya gətirilə bilər və beləliklə, mənada dəyişikliklər özünü biruzə verir. Adi nitqdə intonasiya enən tonla yaranır, lakin güclü hisslərin ifadə olunduğu hallarda qalxan ton müşahidə olunur.

İngilis dilində sadə və mürəkkəb tonlar fərqli şkalalarla işlənərək fərqli münasibət mənaları vurğulayır. İngilis dilində on beş intonasiya modeli daha işlək model olaraq hesab edilir və ingilis dilini öyrənmək istəyənlər üçün həmin bu modellər vacib sayılır. İngilis dilində olan nüvə tonları həm şkala ilə, həmçinin də şkalasız işlənir və bu anda ifadə olunan münasibətlərdə müxtəliflik yaranır. İngilis dilində birinci intonasiya modeli nüvədən, yəni kökdən və vurğusuz hecalardan, və yaxud bir nüvədən ibarət olur. Bu intonasiya modeli cümlənin əsas növləri (nəqli, sual, əmr, nida) ilə işlənir və alçaq enən tonla xarakterik olur. Həmçinin bu intonasiya modeli bitkinlik ifadə edir və təmkinli münasibət bildirən nəqli cümlələrdə, təmkin, neytral münasibət bildirən, xüsusi sual cümlələrində sakit, ciddi münasibət ifadə edən əmr cümlələrində ciddi, təəccüb ifadə edən nida cümlələrində işlənir. Belə ki, bu intonasiya modeli öz müsahibinə sakit, neytral, ciddi, təəccüb mənaları ifadə edir.

Məsələn: "Whatisyourname - ˎJohn;

Tell him - ˎWhat?

I amcold -ˎPity!

It ismypen - ˎTake it then.

İkinci intonasiya modeli enən şkala ilə alçaq enən tonun müşaiyət olunması iləhəyata keçirilir. Bu intonasiya modeli nəqli cümlələrdə,xüsusisuallarda,əmr və nida cümlələrində işlənir.Ümumiyyətlə ikinci intonasiya modelində işlənən cümlələr bitkinlik.qətilik, gümanlıq, ciddilik, məsuliyyət, gərginlik, tez-tez səbirsizlik və olduqca emfatiklik ifadə edirlər. Məsələn,

Iˊthinkyouˊleft it on theˎtable,

ˊKeep it as ˊlong as youˎlike,

Nowˊanswerˎquestions,

Weˊhaventˊheardfrom him forˎages,

Whoisˊcomingtoˎteathen,

ˊDontˊputthemˊall on myˎtable,

Üçüncü intonasiya modeli şkalasız işlənir və alçaq qalxan tondan istifadə olunur. Bu intonasiya modeliqeyri-qətilik,bitkinlik olmayan, təmkinli cavab və söhbətə zəmin yaradan nəqli cümlələrdə,təəccüb ifadə edən xüsusi suallarda, şübhə və narazılıq ifadə edən ümumi sual cümlələrində,sakit halda xəbərdarlıq və sakitləşdirmə ifadə edən əmr cümlələrində və təmkinli cavab,söhbətə zəmin yaradan, təsadüfi tanışlıqlarda,sakitlik ifadə edən nida cümlələrində işlənir.Məsələn,

Whosebookisthis-,Mine

Youmust do it thisway-,How

Howoldareyou-,Howoldam I

Theyarearrivingnextwork-,Arethey

Teachertoclass -,Stop, ,Start.

Goodmorning –,Morning.

Dördüncü imtonasiya modeli enən şkala və səsin alçaqdan qalxması ilə yaranır.Bu intonasiya modeli də üçüncü intonasiya modeli kimi səsin alçaqdan qalması ilə baş verdiyi üçün qətilik bildirməyən, fikir bitkinliyi olmayan, sakitləşdiricilik, əminlik, bəzən təəccüb ifadə edən nəqli cümlələrdə,rəğbət ifadə edən, maraq,təəccüb ifadə edən xüsusi sual cümlələrində,maraq ifadə edən ümumi sual cümlələrində, sakitləşdirmə,ruhlandırma ifadə edən əmr cümlələrində,xudahafizləşmə və görüşmələrdə əhval ruhiyyə ifadə edən nida cümlələrində işlənir.Məsələn,

Shall I buy the TV-set-ˊIfyouˊdontˊfind it ˊtoo,expensive.

Aliceis on thephone-ˊWhomdoessheˊwantto,speakto.

It tookmefourhoursto do theexercise-Itˊtookyouˊfourˊhourstoˊdo ,what.

Hopetoseeyousome day- ˊWillyouinˊvitemetoyourˊevening,party.

I cant do it-ˊTry it a,gain.

Anythingelse- ˊNo,,thankyou.

Beşinci intonasiya modeli əsasən orta səviyyəli tonla tələffüz edilir və heç bir gözlənti olmadan fikir bitkinliyi olmayanson olmayan intonasiya qruplarında işlənir.Məsələn,

Whereis his son now->Frankly, I ˊdontˎknow.

What did Tom say- >Naturally, Hewasdeˎlighted.

Altıncı intonasiya modeli isə bir və ya bir neçə heca daxilində enən qalxan tonla tələffüz olunur. Bu intonasiya modelimaraq, ziddiyyət, düzəliş, inciklik, bəzən sakitləşdirmə ifadə edən nəqli cümlələrdə işlənir. Məsələn,

Can youplaychess-ˎOnce I ,could.

What do youthink of mynewsuit-Theˎcolourisall,right.

P.Rouç"Englishphonetics and phonology" kitabında yazır: "İngilis dilində münasibət funksiyası ilə yanaşı, intonasiyanın aksentual və diskurs funksiyası da xüsusi qeyd edilir"(8,s.183)."İntonasiyanın aksentual funksiyası ondan ibarətdir ki, o, (intonasiya) hecalarında qabarıqlıq effektinin yaranmasına, bununla da onların vurğusu bir heca kimi qavranılmasına kömək edir. Digər tərəfdən, intonasiya tonik vurğunun xüsusi hecaların üzərində yerləşdirməklə intonasiya qrupunda ən əhəmiyyətli sözü qeyd edir, bu da intonasiyanın aksentual funksiyası adlandırılır" (8, s.183).

“Tonik hecanın yeri daha çox linqvistik əhəmiyyətə malikdir. Tonik vurğunun yeri əsasən sonuncu leksik sözün (isim, sifət, say, fel, zərf) üzərində olur. Bununla belə, qarşılaşdırma məqsədilə hər bir söz tonik hecanın daşıyıcısı ola bilər. Belə bir fikir çox tez-tez səslənir ki, tonik hecanın yeri informasiyanın mərkəzini göstərir”. Məsələn:

1) “I 'wantto 'knowwhereheis ˎtravelingto”.

2) “I 'don't 'wantto 'knowwhereheis 'travel ˇfrom. I ˌwantto ˌknowwhereheis ˌtraveling ˎto”(7,s.194).

Ünsiyyət zamanı intonasiya, fasilə, vurğu, mimika və jestlərin işlənmə məqamlarının yerini bilmək lazmdır.Yazılı nitqdə isə orfoqrafiya və durğu işarələri qaydalarınına düzgün əməl etməyi, mənimsəməyi, cümlə üzvlərinin düzgün sıralanması, sintaktik üzvlərin, əsas və köməkçi nitq hissələrinin, cümlə tiplərinin üslubi imkanlarını mətn daxilində qiymətləndirib yerli-yerində işlətmək, məna tutumunu başa düşməyi əsas şərtlərdir. Nitqin intonasiya baxımından zənginliyindən danışarkən sual, nida, əmr cümlələri, xitablar, ara sözlər, ara cümlələr vəs.sintaktik quruluşların özünəmüvafiq formada, təbii şəkildə tələffüz olunmasının vacibliyi də diqqət mərkəzində saxlanılmalıdır.

İntonasiya cümlənin mənasını aydınlaşdırır, cümlə üzvlərinin düzgün şəkildə qruplaşdırılmasını təmin edir, cümlə daxilində olan xitabları, ara sözləri, ümumiləşdirici sözləri, əlavələri və xüsusiləşmələri diqqətə çatdırır. Dilimiz intonasiya baxımından olduqca zəngindir. Buna əsasən də nitq prosesində rəngarəng məna çalarları yaratmaq mümkün olur. İntonasiya haqqında qısa olaraq tələffüz hadisəsidir deyə bilərik. Hansısa bir yazılı nitqi oxuyan şəxs həmin nitqi yazanın intonasiyasını duymur, lakin yazı manerasından, durğu işarələrinə və dil vasitələrinə əsaslanaraq onun hansı hisslərlə cümlələri qurmasını təsəvvüründə canlandırır. Bəzi hallarda intonasiyanın rolu o dərəcədə yüksək olur ki, o, fikrin əsasını təşkil edir, sözün əsas mənasını dəyişdirə bilir. İntonasiya ilə əlaqədar qüsurlar həm sürətli, həm də yavaş danışıq və ya oxu zamanı üzə çıxır. Sürətin normadan kənar, aşağı və ya yuxarı avazlanması mənanın təhrif olunması ilə nəticələnə bilər. İntonasiya tələffüzün dörd xüsusiyyətini - fasilə, vurğu, melodiya və tempi özündə cəmləşdirir. Bu dörd xüsusiyyət nitqin xarici elementləridir və onlar birlikdə avazlanmanı əmələ gətirir, nitqdə ifadəliyin verilməsinə xidmət edir.

Cümlələr də məqsəd və intonasiya görə bir - birindən fərqləndirilir. İntonasiya sadə cümlələrin növləri ilə yanaşı mürəkkəb cümlələrin də düzgün şəkildə qruplaşdırılmasını təmin edir, sadə və mürəkkəb cümlələrin, habelə tabesizlik və tabelilik əlaqələrinin şərtləndirilməsinə xidmət edir. İntonasiya həmçinin də məntiqi vurğunun və ara sözlərin aşkarlanmasına da imkan yaradır.

İntonasiyanın təbii bir dildə necə işlədiyini göstərmək üçün onun mənalarını nəzərdən keçiririk:

1) İntonasiya vasitəsilə danışanın nitqi cümlələrə ayrılır. İntonasiya, əsasən, günümüzdə radio və televiziyanın təkmilləşməsi nəticəsində vacib rola sahib olan mütaliədə mühüm amildir. Intonasiya yazılı nitqdəki durğu işarələri ilə şifahi nitq arasındakı əlaqəni ifadə edir.

2) İntonasiya cümlələrin ünsiyyətə xidmət edən növlərinin fərqləndirilməsində də iştirak edir. O, bəzən sual cümləsinin müəyyən edilməsində yeganə vasitə olur. Məsələn, Johngoingwork. John going work?

3) Nəqli cümlənin fərqləndirilməsi ilə əlaqədar da eyni fikirləri deyə bilərik. Belə ki, John sözünün və ya work sözünün məntiqi vurğusu bu sözlərdən birini daha güclü səsləndirməklə, onu diqqətə çatdırır. Əgər vurğu Johnun üzərinə düşərsə, burada dinləyiciyə işə gedənin başqası yox, John olduğunu bildirir. Əgər vurğu work sözünün üzərinə düşərsə, dinləyiciyə Johnun başqa yerə yox işə getdiyini bildirəcəkdir.

4) Təkcə intonasiya, cümlə üzvünün ifadəsi ilə bağlı olan sintaqmalara ayrılma olub məna ilə müəyyən edilir.

5) Müvafiq nitq hissəsinin sonlu, yaxud sonsuz sintaqma olub-olmamasını təyin edir (3, s.90).

İntonasiyanın elementlərindən olan məntiqi vurğusu, əsasən cümlədəki sözlərdən birinin daha güclü tələffüzü ilə yaranır. Ritm- müəyyən pauzalarla vurğulanan hecaların mütəmadi təkrarlanmasıdır. İngilis dili ritminə xas olanəlamətlər bunlardır.

Ritm qruplarının hər birinin daxilindəki vurğulanmamış hecaların miqdarından asılı olmayaraq, vurğulu hecaların mütəmadi təkrarlanması eyni vaxtda bir məna qrupunda səslənməsinə gətirib çıxarır.

Vurğulu və vurğusuz hecaların bir-birini əvəzləməsi ritmin söz vurğusuna vəcümlə vurğusuna təsir göstərməsinə gətirib çıxarır.

İngilis dilində nitqin ritmik qurulması üçün bunlara riayət etmək lazımdır:

1) intonasiya qruplarına;
2) ritmik qruplara;
3) sait ilə başlayan sözlərin əvvəlki sözlərlə əlaqələndirilməsinə;
4) vurğusuz sözlərin və hecaların zəiflədilməsinə;
5) vurğulu hecaların müntəzəm olaraq bir intonasiya qrupu daxilində olmasını təmin edilməsinə (6, s.89).

Perseptual səviyyədə cümlə intonasiyası dörd elementdən ibarət olur: səs tonu və ya nitq melodiyası; məntiqi vurğu; nitqin tempi, ritmi və pauzası, bu mürəkkəb vəhdət cümlənin düzgün qrammatik quruluşu və leksik tərkibi, natiqin və ya yazıçının düşüncələri, duyğuları, hissləri adekvat şəkildə ifadə edilməsinəxidmət edir. Gerçəkliyə və cümlənin məzmununa münasibəti ifadə edir. Cümlə intonasiyası cümlədəki sözlərdən birində olan səs dəyişməsidir. İntonasiyasının bu tərifi, yuxarıda qeyd olunduğu kimi, xarici dilçilərin əksəriyyətinin verdiyi tərifdən köklü şəkildə fərqlənir.

Ancaq bəzi xarici dilçilər son əsərlərində cümlə intonasiyasını həm də səs dəyişikliyindən başqa bir şey kimi təyin etməyə başlayırlar.

İntonasiya vurğu nümunəsidir; vurğu nisbi səs, yüksəklik (bəzi sistemlərdə gərginlik) və "uzunluq" məcmusudur. Cümlənin intonasiyasının, əsasən, iki tərifi terminoloji cəhətdən fərqləndirilir. Bunları aşağıdakı üç yoldan biri ilə asanlıqla uzlaşdırmaq olar:

1) Hər dəfə istifadə etmək və uyğunlaşdırmaqla, intonasiya termini həm dar mənada (nitq melodiyası) və geniş mənada (dörd komponentin mürəkkəb birliyi) istifadə olunur;

2) Terminin dar mənada istifadəsindən tamamilə imtina etmək və onu nitq melodiyası, nitqin intensivliyi, nitqin tempi elementləri kimi terminlərlə əvəz etmək;

3) İntonasiya terminini dörd mənada vahid bir kompleks kimi, yəni prosodik olaraq, cümlələrin xüsusiyyətləri, məsələn, prosod kimi əvəz edilməsi üçün xüsusi bir termin tətbiq etməklə.

İntonasiyanın dörd elementi bir-biri ilə sıx bağlıdır və onları bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir. Bununla belə, onlar danışıq zamanı ayrılmaz olsalar da, onları təhlil edərkən bir-birindən ayırmaq mümkündür.

Nitq melodiyasının üç elementini araşdırarkən bir cümlə daxilində və sonunda səs dəyişməsinin rolunu fərqləndirmək vacibdir.

Səs vasitəsilə bir şeyin necə söylənildiyi göstərilir və ya eşidilir. Bu səs nümunəsi olmaqdan daha çox bir münasibət kimidir. Xoşbəxt, kədərli, həyəcanlı, qəzəbli vəya digər əhval-ruhiyyələr arasında fərqli səslənmə eşidilə bilər. Beləliklə, ton praqmatikünsiyyətin bir hissəsidir. Bu o deməkdir ki, duyğu insanın tonuna çox təsir edir. Fərqli tonlardan istifadə etməklə bir cümlədəki sözlər həmin sözlərin əsl orijinal mənalarından başqa digər mənalara da sahib ola bilər.

Beləliklə,qeyd olunanlardan məlum olur ki, dil faktı olan cümlə ünsiyyət prosesi müddətində fraza kimi çıxış edir. Ünsiyyət prosesi başqa qrammatik vasitələrlə yanaşı, həm də intonasiyanınköməyi ilə baş tutur. Nitqimizin əsasını təşkil edən müxtəlif söz və ifadələr mövcuddur ki, onlar öz-özlüyündəünsiyyət prosesinin tələblərini tam ödəmirlər. Belə elementlər, yəni qrammatik nöqteyi-nəzərdən özünü tam və müstəqil cümlə olaraqtəqdim edə bilməyən elementlər, intonasiyanın köməyi ilə xəbərlik xüsusiyyətinə sahib olur və ünsiyyət zamanı müvafiqəhəmiyyət daşıyır. İntonasiya tək-tək işlənən sözlərdə, yaxud ifadələrdə tam, müstəqil fikrin çatdırılması üçün imkan yaradan, olduqca vacib bir vasitədir.

Məzmundan kənar, ayrılıqda müstəqil formada işlənən cümlənin sahib olduğu intonasiya ilə məzmun içərisindəki cümlənin sahib olduğu intonasiya bir sıra səbəblərə görə fərqlənir. Məzmun içərisindəki cümlələrin sərhəddinin təyin edilməsi, əvvəlki cümlənin sonu ilə növbəti cümlənin əvvəlinin qarşılıqlı əlaqəsi, cümlənin semantik cəhətdən əlaqələnməsi və s. bu kimi məsələlər intonasiya nöqteyi-nəzərdən maraqlı araşdırma obyektləridir. Məsələn,

**I** didn't say he stole the money. Someone **else** said it.

I didn't say he stole the **money.** He may have taken some **jewelry**.

I didn't say he **stole** the money. May be he just **borrowed** it.

Məzmundan kənar götürülmüş cümlənin intonasiyasıbu cümlənin ilk olaraq, daxili üzvlərinə ayrılmasına şərait yaradır. Cümlə üzvlərinin hər biri başqa bir supraseqment element olan, vurğu ilə müşayiət olunur. Cümlə üzvlərinin söz birləşmələri, budaq cümlələr, tərkiblər və s. formasında yaradılması, həm semantik qanunlarla, həmçinin dəintonasiyanınköməyi ilə mümkün olur. Cümlə səviyyəsində intonasiya fərqli-fərqli qrammatik əlaqələrin və spesifik sintaktik əlaqələrin daha yaxşı vurğulanmasına şərait yaradır. Tabeli, eləcə də tabesiz mürəkkəb cümlələrin ayrı-ayrı növlərə, elementlərə bölünməsinə, əsasən də budaq cümlələrin tərkiblərdənayırd edilməsində intonasiyanın rolu inkaredilməzdir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**

1.Babayev S.M. Müasir Azərbaycan və ingilis dillərində feli bağlama tərkibinin struktur-sintaktik və intonasiya təhlili məsələsi haqqında. ADU-nin "Elmi əsərləri" (Dil və Ədəbiyyat) Bakı, 1965, № 3, s. 15-20
2.Crystal.D. Prosodic Systems and İntonation in English. Cambridge, 1969.
3.Leontyeva S.F. A theoretical course of English phonetics. M., 1988
4.Axundov A., Babayev S., Zeynalov. F. İngilis və Azərbaycan dillərində vurğunun ritmik-melodik xüsusiyyətləri. Bakı, 1996, 252 s.
6.Соколова М. А. и др. Практическая фонетика английскогоязыка.М.,1984, 352 с.
7.Kingdon R. The Groundwork of English Intonation. London, 1958, 272 p.
8.Roach P. English Phonetics and Phonology. Cambridge, 1983, 183 p.

**Açar sözlər:**intonasiya, sintaqm, melodiya, qalxan ton, enən ton
**Keywords :** intonation,syntam,melody, risingtone,fallingtone
**Ключевыеслова:**интонация,синтагма,мелодия,восходящий тон,падающий тон

## İNGİLİS DİLİNİN RABİTƏLİ NİTQİNDƏ İSTİFADƏ OLUNAN İNTONASİYA MODELLƏRİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

### XÜLASƏ

Elmi məqalə ingilis dilində danışıqda istifadə olunan intonasiya modellərinin cümlənin kommunikativ tiplərində işlənməsindən bəhs edir.İngilis dilində sadə və mürəkkəb tonlar fərqli şkalalarla işlənərək fərqli münasibət mənaları vurğulayır. İngilis dilində on beş intonasiya modeli daha işlək model olaraq hesab edilir və ingilis dilini öyrənmək istəyənlər üçün bu modellər vacib sayılır. İngilis dilində nüvə tonları həm şkala ilə, həmçinin də şkalasız işlənir və bu zamanmüxtəlifnüvə tonlarından və şkalalardan istifadə etməklə ifadə olunan fikirlər, münasibətlər

arasında fərqlilikyaranır.Eyni cümlə fərqli tonlarla fərqli münasibət ifadə edir.İntonasiyanınkomponentlərindən biri kimi melodiyanın danışıq nitqi üçün,fikrin düzgün çatdırılması üçün nə qədər əhəmiyyətli olduğu qeyd edilir.

**Tahirova Sabina**

**MAIN CHARACTERISTICS OF INTONATION MODELS USED IN CONNECTED ENGLISH SPEECH**

**SUMMARY**

The scientific article deals with the processing of intonation models used in English speech in communicative types of sentences. In English, simple and complex tones are processed with different scales and emphasize different relational meanings. Fifteen intonation patterns in English are considered to be more functional patterns and these patterns are considered important for those who want to learn English. In English, nuclear tones are used both with and without a scale, and at this time, there is a difference between the ideas and attitudes expressed by using different nuclear tones and scales. The same sentence expresses different attitudes with different tones. For the spoken speech of the melody as one of the components of intonation, the idea it is noted how important it is for its correct delivery.

**ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ ИНТОНАЦИОННЫХ МОДЕЛЕЙ, ИСПОЛЬЗУЕМЫХ В СВЯЗНОЙ АНГЛИЙСКОЙ**

**Резюме**

В научной статье речь идет об обработке интонационных моделей, используемых в английской речи в коммуникативных типах предложений. В английском языке простые и сложные тона обрабатываются с разной гаммой и подчеркивают разные реляционные значения. Пятнадцать моделей интонации в английском языке считаются более функциональными моделями, и эти модели считаются важными для тех, кто хочет выучить английский язык. В английском языке ядерные тона используются как с гаммой, так и без нее, и в настоящее время существует разница между идеями и отношениями, выражаемыми с помощью разных ядерных тонов и гамм. Одно и то же предложение выражает разные отношения разными тонами. Для устной речи мелодия как один из компонентов интонации отмечается, насколько важно ее правильное произнесение.

**RƏYÇİ:** f.f.d.dos. Qocayeva X.Ə